> ***Bu gün siyasi mübarizəni bu formada aparmaq istəyən dəstəyə, – bunlara heç qüvvə də demək olmaz, – heç nə dərs olmur. Vaxt dəyişir, insanlar dəyişir, Azərbaycan dəyişir, siyasi mübarizə metodları dəyişir, onlar isə hələ də köhnə təfəkkürlə yaşamaq istəyirlər və öz mənasız həyatlarını bu işlərə sərf edirlər.***
>
> *İlham ƏLİYEV*
> *Azərbaycan Respublikasının Prezidenti*

# Dağıdıcı və xəyanətkar müxalifət anti-Azərbaycan qüvvələrin əlində alətə çevrilib

***Müxalifətin bugünkü ərz-halı, çarəsizliyi, daha doğrusu, ətrafına kimlərisə toplamaq üçün əlacı xaricdə axtarması barədə qeydlərimizi cənab Prezidentin bu cümlələrindəki "dərs" ifadəsi ilə başlamaq istədik. Belə ki, dərs alınmalı, öyrənilməli, nümunə götürülməli məqamlar kifayət qədər olsa da, Əli Kərimli və onun ətrafındakılar heç nədən dərs almaq istəmirlər. Məhz elə ona görə də, istənilən addımda uduzur, bütün cəhdlərində məğlub olurlar.***

***Bəs onların nümunə götürməli olduqları faktlar nədən ibarətdir? Xatırladaq ki, Yeni Azərbaycan Partiyası yaradılanda və ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə, müxalif partiya olaraq, siyasi mübarizəyə qatılanda ortaya qoyulan məqsəd və məramlara baxsaydılar, bilərdilər ki, müxalifliyin əsasını nələr təşkil edir.***

Yeni Azərbaycan Partiyasının nizamnaməsinin "Partiyanın məqsəd və vəzifələri" adlı II bölməsinin birinci maddəsində yazılıb: "Yeni Azərbaycan Partiyasının ali məqsədi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, sabit və sosial yönümlü iqtisadiyyatın yaradılması, irqindən, milliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, möhkəm əmin-amanlıq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması və insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsindən ibarətdir".

Yəni o zamankı müxalifət ölkəni mövcud iqtidarın yaratdığı problemlər bataqlığından çıxartmaq, vətəndaş müharibəsinin qarşısını almaq, xaos və anarxiyaya son qoymaq, düşmən dövlətin hərbi müdaxilələrinə cavab vermək, ölkə vətəndaşının həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaq üçün siyasi mübarizəyə qatılırdı.

Bəs indiki müxalifət hansı məram və məqsədlərə xidmət edir? Çox təəssüf ki, indiki müxalifətin əsas məqsədi ölkədə xaos və anarxiya yaratmaq, vətəndaş qarşıdurmasına çalışmaq, xalqın və dövlətin maraqlarını xaricdəki "boss"larının verdiyi "qrant"lara satmaq, hətta, ərazilərimizin 20 faizini işğal etmiş düşmənin nümayəndələri ilə "bazarlığa getmək" kimi yolverilməz istəklərdən ibarətdir. Bu gün Azərbaycanın radikal müxalifəti, sözün həqiqi mənasında, xalqın və dövlətin maraqlarını satmaqla məşğuldur. Həmin düşərgənin ölkədə "beşinci kolon" funksiyasını yerinə yetirməsi dəfələrlə sübut edilib. Ancaq xalqın iradəsi və dövlətin qətiyyəti nəticəsində, onlar heç zaman istədiklərinə nail ola bilməyiblər.

Ölkədəki daxili siyasət barədə danışan dövlət başçımız qeyd edir ki, Azərbaycanda bundan sonra da sabitlik təmin ediləcəkdir. Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Çünki Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Məhz xalq-iqtidar birliyi bu sabitliyi şərtləndirir. Dövlət başçımız deyir: "Bu vəhdət imkan verir ki, biz uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da biz elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin. Mən şübhə etmirəm ki, Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır".

Xaricdəki anti-Azərbaycan qüvvələrin əlində alətə çevrilmiş yerli müxalifətin qaldırdığı böhtan xarakterli uydurmaların əksinə olaraq, ölkəmizdə bütün azadlıqlar yüksək səviyyədə təmin edilir: "Biz demokratik cəmiyyət qururuq. Yeni Azərbaycan Partiyasının yaradılması demokratiyanın təzahürü idi. Buna baxmayaraq, o vaxt hakimiyyəti dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC --Müsavat cütlüyü ən antidemokratik addımlar atmağa hazır idi ki, bu partiyaya əngəllər törətsin. Ancaq Yeni Azərbaycan Partiyası o vaxt ölkədə siyasi sistemin yaradılmasına da çox böyük töhfə vermişdir. Bu gün biz demokratiya yolu ilə gedirik. Azərbaycanda bütün azadlıqlar -- söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı tam şəkildə təmin edilir. Lakin sərbəst toplaşma azadlığından sui-istifadə etməyə çalışan, özünü müxalifət adlandıran bir dəstə hesab edir ki, onlara qarşı hansısa süni əngəllər törədilir. Halbuki bu, qətiyyən belə deyil, o uğursuz mitinqlərin səbəblərini onlar özlərində axtarmalıdırlar. Xalq o ünsürlərə çoxdan "yox" deyib. Onlar üçün Azərbaycanın siyasi səhnəsində yer yoxdur. Ona görə yox ki, biz onlara maneçilik törədirik. Ona görə ki, onların, necə deyərlər, kitabı çoxdan bağlanıb. Qeyri-konstruktiv hərəkətləri, aqressiv davranışları onlara xalqın nifrətini birə-on artırır".

Ekspertlər yazırlar ki, indiki şəraitdə, internet dövründə nəyisə gizlətmək mümkün deyil. Azərbaycan xalqı çox yaxşı bilir ki, bu gün özünü müxalifət adlandıran bir dəstə xaricdən idarə olunur. Onlara xaricdən komandalar verilir. O komandalar nəticəsində müəyyən dövrdə hərəkətə keçirlər, fəallaşırlar. Sonra da görəndə ki, mitinqlərinə az adam gəlir, necə deyərlər, suyu süzülə-süzülə yenə kənara çəkilirlər. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı xaricdən idarə olunan ünsürlərin – "beşinci kolon"un ölkəmizdə hansısa mövqeyə sahib olmasına heç vaxt imkan verməyəcək.

Əli Kərimlinin və onun nəzarətində olan "Milli Şura"nın mübarizə metodologiyası da çox bəsitdir. Xaricdə bir yalan uydurulur, bir şər-böhtan kampaniyasına rəvac verilir. Ondan sonra bu yalan, böhtan xarici mətbuatda dərc edilir. Daha sonra bunun əsasında da müəyyən tərpənmə müşahidə olunur. Bu tərpənmə bir-iki mitinqdə özünü göstərir. Həmişə olduğu kimi, axırıncı mitinq onun təşkilatçıları üçün məyusedici olur, bununla da məsələ bitir.

Yenə də yazının əvvəlinə qayıdaraq yada salmaq istərdim ki, 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC–Müsavat rejimi hakimiyyəti qanunsuz zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC –Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevdə gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

Bəs həmin iqtidarın indi müxalifətdə olan təmsilçiləri nə istəyirlər? Əlbəttə, ölkədəki ictimai-siyasi sabitliyi pozmaq. Cəmiyyətə 1992-ci il ab-havasını yenidən qaytarmaq, Azərbaycana Suriyanın, Liviyanın taleyini yaşatmaq və başqa alçaldıcı addımlar atmaq. Ancaq yanılırlar. Çünki bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir, zənginləşdirilir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***